# TEATRLARIN MÖVCUD DURUMU





***Teatra sevgi nədən başlanır?***

*Teatr o dərəcədə canlı sənətdir ki, tamaşaçı ovqatı bir tamaşanın bir neçə dəfə "doğulmasının" səbəbkarı ola bilir. Yaqin indiki teatrallar arasında ürəyinə ilk teatr sevgisi qığılcımı uşaq vaxtı Yeni il şənliklərində bəzəkli küknar ağacının ətrafında Şaxta baba, Qar qız və yaşıdlarıyla şənləndiyi illərdə düşənlər az deyil. Onlar üçün bu ortamın əsrarəngizliyi ayrı bir aləm, ardınca tamaşa zalında Yeni il səhnə əsərini izləmək tamam başqa bir aləm olub, şübhəsiz. Gələcək teatrallar üçün ikincidə sehr, təkrarsızlıq daha çox imiş və zalın işıqları sönüb səhnənin pərdələri açılanda hədsiz sevinc və həyəcanla nəfəslərini içlərinə çəkirmişlər. Elə böyüyəndən sonra da onların bu halı davam etməkdədir...*

## Canlı sənətin virtual "canı"

Yeni növ koronavirus. COVİD-19. Pandemiya. Karantin. Sosial təcrid. Sosial məsafə...

Teatr adlı sehrbazın təhər-töhürü, vərdişləri ilə tərs mütənasib olan, artıq aylardır davam edən müvəqqəti (!) yaşam qaydalarını şərtləndirən anlamlar.Teatrsevərlər (hələ teatr xadimlərinin özlərini demirəm) bu dönəmdə xassəsindən asılı olmayaraq səhnələrin canlı reaksiyasından, zalların tamaşaçıdan ötrü darıxdığını aydın hiss edəcək dərəcədə ilk sevgilərindən biri - ilk teatr sevgisi qığılcımından ötrü qəribsədiklərini vurğulamağa ehtiyac yoxdur.

Paytaxt və əyalət teatrlarımız bu darıxmağı, bu qəribsəməyi keçmiş və cari repertuardakı səhnə əsərlərinin virtual nümayişi və onlayn teatr söhbətləri ilə əvəzləmək mərhələsində var olaraq xidmət etdikləri sahəni yaşatmaq və biz teatrsevərləri ovutmaq dönəmindədirlər. Bu dönəmdə teatrlarımız karantin rejiminin bütün qaydalarına riayət edərək Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələr köçürmüşlər. İndi isə bir-bir və təfsilatı ilə...

### AKADEMİK OPERA VƏ BALET TEATRI

Akademik musiqini canlı dinləmək və seyr etmək sözsüz ki, heç nə ilə müqayisə olunmaz bir zənginləşmək mənbəyidir. Lakin mövcud şəraitdə başqa çıxış yolu qalmayan Akademik Opera və Balet Teatrı "evdə qal, evdə çalış" şüarına köklənib. Teatrın vokalçıları, orkestri və xor artistləri repertuarda olan tamaşalardan kiçik parçalarla "Mədəniyyət" kanalı və sosial şəbəkələrdə çıxış etdilər. Balet ustaları bu layihəyə qoşularaq ev şəraitində necə məşğul olduqlarını göstərdilər. Muğam bölməsinin solistləri "Mədəniyyət" kanalının "Eyvana çıx" layihəsi çərçivəsində canlı ifaları ilə muğamsevərlərin görüşünə gəldilər.

Teatrın tamaşalarının aylıq virtual repertuarı tərtib edilərək internet vasitəsilə nümayiş olunmaqdadır. Bədii rəhbərlik virtual



repertuarı tərtib edərkən tamaşaçıların marağına uyğun ən populyar və baxımlı opera və balet tamaşalarını (həm milli, həm də klassik dünya bəstəkarlarının yaradıcılığına aid) seçmişdir. Virtual repertuar əvvəlcədən sosial şəbəkələrdə anons edilib və tamaşaçılar məlumatlandırılıb. Opera və Balet Teatrının daimi tamaşaçıları yaxşı bilirlər ki, opera da, balet də akademik sənət növləridir və onların sadiq tamaşaçıları var. Sadiq tamaşaçıları isə opera və balet tamaşalarının bir müddət virtual formatda təqdimatı, yeni səhnə əsərlərinin hazırlanmasının təxirə düşməsi pandemiyadan, karantin rejimindən sonra teatrdan uzaqlaşmasına səbəb ola bilməz. Opera və Balet Teatrında tamaşalar müxtəlif tanınmış sənətkarların ifasında təqdim olunur, xüsusən klassik tamaşalarda partiyaların ifası üçün dünyada tanınmış vokal və balet sənəti ulduzları ilə yaradıcılıq əməkdaşlıqları qurulur və bu da teatrın tamaşalarına tamaşaçıların yüksək marağını təmin edir, opera və balet sənətini sevənlər tamaşa ilə yanaşı, baş rollarda çıxış edən ifaçılara da önəm verirlər. Beləliklə, qalır insanların sağlamlığını qoruyaraq koronavirus kabusuna qalib gəlmək və yalnız bundan sonra perspektivdəki işlər haqqında bəhs etmək...

## *AKADEMİK MİLLİ DRAM TEATRI*

*Koronovirus pandemiyası ilə əlaqədar elan olunmuş xüsusi karantin günlərində Mədəniyyət Nazirliyinin tövsiyəsi əsasında Akademik Milli Dram Teatrının da tamaşalarının virtual nümayişi davam edir. Bu cür fəaliyyət "Evdə qal, özünü və yaxınlarını qoru", "Biz birlikdə güclüyük" şüarları ilə həyata keçirilən sosial təcrid tədbirlərinə mədəniyyət ocağının rəhbərliyinin və kollektivinin mənəvi dayaq cavabıdır. Akademik Milli Dram Teatrı onlayn tamaşalarını "Sənət manea tanımır" sloqanı ilə təqdim edir. Ölkənin əsas teatrı olmaq missiyasını unutmayaraq sənət ocağı Facebook sosial şəbəkəsində, teatrın rəsmi internet səhifəsində və YouTube kanalında virtual nümayişini tərtiblədiyi bəzi tamaşalarını ingilis və rus dillərində subtitrlə təqdim edən ilk teatr oldu.*



## *GƏNC TAMAŞAÇILAR TEATRI*

Teatr tariximizdə özünəməxsus yeri olan bu teatrın truppası karantindən əvvəl başladığı "Balaca yaramaz" (quruluşçu rejissor Bəhram Osmanov) və "Mauqli" (quruluşçu rejissor Elşad Rəhimzadə) tamaşalarının məşqlərini karantin şəraitində onlayn davam etdirib. Mart ayından etibarən isə teatrın Facebook səhifəsində hər gün repertuardakı tamaşaların videoyazıları təqdim olunmaqdadır. Virtual proqramın tərtibində həm indiki, həm




də vaxtilə repertuarda olmuş tamaşalara yer ayrılır. Sosial şəbəkə hesabları bəlli durumun fəaliyyət tərzinə uyğunlaşmaqda teatrın kollektivinə yardımcı olub.

Məşqlərdən videomateriallar da teatrın Facebook səhifəsində yerləşdirilib. Birinci karantin rejimi başa çatanda sosial məsafəyə və gigiyena qaydalarına əməl etməklə rejissorlar aktyorlarla teatrda canlı olaraq görüşüb fikir mübadiləsi aparıblar. Karantinin ilk günlərindən Gənc Tamaşaçılar Teatrının aktyorları "evdə qal, evdə yarat" kampaniyasına qoşularaq nəzm və nəsr nümunələrinin qiraətinin ev şəraitində videoyazılarını virtual tamaşaçıları ilə paylaşıblar.

## *ABDULLA ŞAİQ ADINA DÖVLƏT KUKLA TEATRI*

Balaca teatrsevərlərin və dünyaya kuklaların gözü ilə baxmağa üstünlük verən böyüklərin sevimli məkanı olan bu fəal teatr üçün mövcud durum nə qədər üzücü olsa da tamaşaçılarını vərdiş etdikləri dalğada saxlamaqdadır.

Teatrın direktoru, Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadənin bildirdiyinə görə insanların asudə vaxtının səmərəli keçirilməsi, onların evdə qalmaqla da olsa yaradıcılıq nümunələrindən zövq almaları üçün Kukla teatrı da müvafiq fəaliyyət proqramı müəyyən edib. Hələ karantinin ilk günlərindən teatrın yaradıcı heyəti səfərbər olaraq "Evdə qal, sağlam ol" kimi aksiyasında, sosial şəbəkələrdən aparılan təbliğat işində aktiv iştirak etdi. Kuklaçılar istər müxtəlif tamaşalardan personajların dilindən, istərsə də uşaqların sevimli nağıl qəhrəmanlarının obrazlarında izləyicilərə səslənərək çağırış xarakterli videoçarxlar çəkib yerləşdiriblər. Teatrın nəzdindəki "Oyuq və "Küllücə" teatr-studiyalarının balaca və istedadlı fəalları da studiya pedaqoqları və rəhbərinin onlar üçün təyin etdiyi tamaşa, mono oyun qrafikinə uyğun olaraq müxtəlif formatlı videolentlər çəkərək sosial şəbəkə hesablarında paylaşıblar. Rəşad müəllim qeyd edir ki, Mədəniyyət



"Qara balığın nağılı" tamaşasından səhnə

heyətdə onlayn məşq formatına münasibət birmənalı deyil. Hər halda distant fəaliyyətin bütün imkanlarından istifadə baxımından "Pəri Cadu" və "İllüziya" tamaşalarını onlayn rejimdə hazırlamağı məqsədəuyğun saydıq və bu iş davam etməkdədir. Digər teatrların "Evdə qal, teatrsız qalma" şüarına köklənən fəaliyyətindən kənarda qalmayaraq, teatrın repertuarında vaxtilə və son dövrdə olan bütün tamaşaları toplayaraq YouTube kanalına yerləşdirdik və həftədə 3-4 dəfə həm tamaşalar, həm də verilişlərlə tamaşaçılarımızla görüşə gəlməyə başladıq. Teatrın ədəbi hissə müdiri Elçin Cəfərovla mövcud yaşam və fəaliyyət rejiminin davamlı olacağı təqdirdə

Nazirliyinin "Bizi birləşdirən mədəniyyət" layihəsi çərçivəsində teatr özünün yaradıcılıq məhsullarını geniş tamaşaçı auditoriyası ilə fasiləsiz şəkildə bölüşməkdədir. Bundan başqa, repertuardakı əksər tamaşalar "Mədəniyyət və "ARB Günəş" kanallarında hissələr və tam versiyalarda bir neçə dəfə nümayiş olunub. Teatrın bədii rəhbərliyi virtual repertuarı hazırlayarkən iştirak etdiyi festivallarda mükafatlar qazanan tamaşalara da yer ayırıb. Kukla teatrının virtual repertuarı sorğu əsasında müəyyənləşmiş tamaşaçı rəylərinə əsasən tərtib edilir.Yaradıcı heyətin üzvləri müvafiq qaydalar çərçivəsində televiziya verilişlərində də aktiv iştirakla uşaqlara, ümumilikdə kuklasevərlərə teatrımız, onun repertuarı, yaradıcılıq istiqamətləri haqqında məlumatlar verirlər. Kukla teatrı pandemiyadan çox-çox öncə də internet resurslarından sənətin təbliğatı üçün geniş bəhrələnməkdəydi. Teatrın aktiv internet saytı, YouTube və digər sosial şəbəkələrdə hesabları var. Canlı fəaliyyətin donduğu dövrdə "Oyuq" teatr-studiyasının üzvlərinin yaradıcılıq imkanlarının donmaması naminə studiya Təhsil Nazirliyi, Kulis.az saytı ilə birgə "Sənə nağıl danışım" adlı müsabiqəyə cəlb olundu.

İyun ayının ortalarında Kukla teatrının truppası istedadlı və bacarıqlı rejissor Namiq Ağayevin Səməd Behrənginin "Balaca qara balıq" mənzum nağılı əsasında hazırladığı "Qara balığın nağılı" tamaçasını təhvil verdi. Tamaşanın məşqlərinin bir hissəsi və teatrın Bədii şurasına təqdimatı onlayn formatda baş tutub.

## DÖVLƏT "YUĞ" TEATRI

Həcmi kiçik, dünyası isə böyük olan (üstəlik binası da yoxdur, hələlik Kukla Teatrında fəaliyyət göstərir) "YUĞ" teatrı 2020-ci ilə yeni "Kloun biz" tamaşası ilə başlayıb. Amma təəssüf ki, daxili baxış və Bədii şüra tərəfindən qəbul baş tutsa da bəlli səbəbdən premyera olmayıb. Teatrın baş rejissoru Mehriban Ələkbərzadə jurnalımıza bildirdi ki, koronavirus pandemiyasının ölkə ərazisində geniş yayılmasının qarşısının alınması məqsədilə sosial təcrid qaydalarından irəli gələn "evdə qal" çağırışına qoşulmaqla Cəlil Məmmədquluzadənin "Çay dəstgahı" əsəri əsasında "Toy dəstgahı", Əbdürrəhimbəy Haqverdiyevin "Pəri Cadu", İvan Vırıpayevin "İllüziya", Şekspirin "Hamlet" əsərlərinin məşq cədvəli pozulub. "YUĞ"çular donmuş iş rejimində kiçik bir onlayn pəncərə açıb Bədii şuranın iştirakı ilə toplantı keçirərək, karantin rejimində fəaliyyətlərini müəyyənləşdirmiş və qərara almışlar ki, karantindən sonra repertuardakı tamaşaları bərpa etməklə yanaşı, məşqləri yarımçıq qalan tamaşaları da yenidən nəzərdən keçirsinlər və artıq 4 yox, 2 tamaşanı - "Toy dəstgahı" və "Hamlet" tamaşalarını tamamlayıb təhvil versinlər. Digər 2 tamaşa 2021-ci ilin repertuar planında nəzərdə tutulub.

M.Ələkbərzadə: "Videogörüşlər zamanı karantin günlərində ayda bir neçə dəfə toplantı keçirərək onlayn məşq məsələsinə də diqqət ayırdıq. Onu da deyim ki, yaradıcı



"Medeya. Sekvensiya. 001" tamaşasından səhnə

daha nələr edə biləcəyimizi götür-qoy etdik və mənim yadıma Mehdi Məmmədovun təqdimatında xatırladığımız "Teatr mikrofon qarşısında" layihəsi düşdü. Düşündük ki, o layihəni dirçəldə, həmçinin məşqləri onlayn davam edən tamaşaların premyerasını da onlayn keçirə bilərik. Bütün bunlar üçün texniki şəraitimiz yetərli olmasa da, mövcud imkanlardan istifadə edib "YUĞ"sevərlərin gözünü yolda qoymayacayıq. Bir daha vurğulayım ki, digər teatrlardan fərqli olaraq bizim teatrın bu sarıdan imkanları minimal dərəcədədir və gerçəkləşdirdiklərimizin böyük hissəsi şəxsi təşəbbüslərə dayaqlanır. Belə minimal texniki imkanlarla biz respublika teatrları arasında ilk dəfə olaraq onlayn premyeranı gerçəkləşdirmək əzmindəyik. İnşallah ki texniki imkanlarımız mükəmməlləşər.

Əlbəttə, teatr canlı sənətdir və tamaşaçı ilə ünsiyyəti, tamaşa zalının ab-havasını heç nə əvəz edə bilməz.Amma bizdən asılı olmayan səbəblər fərqli fəaliyyət rejimini diktə edirsə, başqa yol qalmır".

### DÖVLƏT PANTOMİMA TEATRI

Yerli teatrsevərlərin və əcnəbilərin sevimli məkanlarından biri olan bu teatrın da yaradıcı və texniki personalı pandemiya başlayan kimi “Evdə qal” çağırışına qoşulub. Teatrın bədii rəhbəri və baş rejissoru Bəxtiyar Xanızadənin tövsiyəsi ilə aktyorlar bu dövrdə ev şəraitində bir neçə yeni səhnəcik hazırlayıb videoya çəkərək sosial şəbəkədə paylaşıblar ki, yaradıcılıq ritmlərini heç olmasa, hələlik bu şəkildə qorusunlar, həm də teatrın tamaşaçıları sevimli aktyorlarının fəaliyyətdə olduqlarını görsünlər.

Teatrın direktoru Elman Rəfiyev bizimlə söhbətində bildirdi ki, karantin həftələri ərzində pantomimçilər televiziyanın fondunda saxlanılan tamaşaların videoyazılarını gec də olsa əldə edib YouTube kanalı, teatrın instagram və Facebook səhifələri vasitəsilə yayımlamaqdadırlar. E.Rəfiyev: “Hətta aktyorlarımızın evdə çəkib göndərdikləri etüdləri də sosial şəbəkələrə yerləşdirdik. Bizim məşhur “Skripkaçılar” pantomima kompozisiyasını aktyorlarımız hər kəs öz evində ifa edərək videoyazını yollayandan sonra birləşdirib teatrın sosial şəbəkə hesablarında yayımladıq. Pandemiya dönəminin özəlliklərindən biri də bu oldu ki, mayın 16-da teatrın yaranma tarixini ilk dəfə olaraq teatrda, səhnədə, tamaşaçılarımızla görüşərək deyil, hər birimiz öz evimizdən canlı video bağlantıya qoşularaq virtual formatda, amma eyni bayram əhvalında qeyd etdik. Və bunun ardınca Bəxtiyar müəllimin, Pərviz Məmmədrzayevin, Qurban Məsimovun və mənim WhatsApp-da videozəng vasitəsilə planlaşdırılmamış görüşümüz baş tutdu. Ötən günləri xatırladıq, dedik, güldük... Bu iki görüş o qədər səmimi, o qədər müsbət enerjili keçdi ki, şəxsən mən hələ uzun müddət o gözəl təəssüratların təsiri altında olacam.





Bundan başqa tanınmış adamların “Evdə qal” çağırışına mən də qoşularaq Azərbaycanda yaşayan insanları karantin qaydalarına ciddi riayət etməyə çağırdım. Bu dövrdə məktəblilərlə onlayn görüş keçirən ilk aktyorlardan biri kimi onu deyə bilərəm ki, bu görüşlər mənimçün çox maraqlı oldu. İnanıram ki, uşaqlar üçün də. Çünki onların tədris prosesinin onlayn şəkildə davam etdiyi bu günlərdə yeknəsəqlikdən daha çox yorulduqları üçün valideynləri və müəllimləri ilə bərabər tanınmış adamın söhbətinə, nəsihətinə ehtiyacları var. Həm də belə görüşlər uşaqlarda teatra marağı artırmaqla bərabər, onların tam bir şəxsiyyət, nümunəvi bir vətəndaş, əsl ziyalı kimi formalaşaraq vətəninin bütün sahələr üzrə tanınmış xadimlərini tanımasına kömək edir. Artıq 20-dək məktəbə belə görüşlərim yayılıb. Uşaqlardan birinin “aktyorların insanların psixologiyasına yaxşı bələd olduğunu nəzərə alsaq, o psixologiyanı dəyişmək imkanı yaranarsa, nəyi dəyişərdim” sualının cavabı ilə sözümü tamamlayıb demək istəyirəm ki, bizim xalqın torpağa, vətənə, bayrağa münasibətini daha mükəmməl edərdim. Dünyanın çox ölkələrinə səfər edib çox adamlarla tanış olmuş şəxs kimi deyə bilərəm ki, bizim xalqımız da, məmləkətimiz də müstəsna dərəcədə keyfiyyətlidir və biz bu hər hansı dəyərə sığmayan mirasın qədrini bilməliyik.

İndiki ağır dövrdə də təmkinli və səbrli olmalıyıq, inanmalıyıq ki, hər zülmət gecənin bir nurlu sabahı var”.

### SABİT RƏHMAN ADINA ŞƏKİ DÖVLƏT DRAM TEATRI

Şəki və teatr kəlmələrinin sinonimləşdiyini, bir-birini tamamlayan anlayışlara çevrildiyini desək, yanılmarıq. Şəki Dövlət Dram Teatrı maska istifadəsi və sosial məsafə nəzərə alınmaqla pandemiya dövründə də öz işini davam etdirir. Teatrın baş rejissoru, Əməkdar incəsənət xadimi Mirbala Səlimli jurnalımıza bildirdi ki, karantin müddətində onlayn qaydada aparılan məşqlər, artıq teatr səhnəsində aparılır. “Teatr karantin müddətində ölkədə və dünyada hökm sürən mövcud vəziyyət səbəbi ilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tövsiyələri əsasında ilk növbədə builki repertuarında qismən dəyişiklik edib. Kütləvi səhnələri olan əsərlər daha az saylı aktyor heyətinə malik əsərlərlə əvəzlənib”.

Hazırda teatrda baş rejissorun quruluş verdiyi Stanislav Stratiyevin “Avtobus” komediyasının məşqləri gedir Fransız yazıçısı və kinorejissoru Jan Koktonun “İnsan səsi” pyesi əsasında gənc rejissor Əlisahib Cəlilovun debütü olan monotamaşa isə tam hazırdır.

Şəki teatrı da karantin günlərində virtual tamaşa nümayişlərinidən geri qalmayıb. Sənət ocağı Şəkidə fəaliyyət göstərən “ARB Şəki” və “Azərbaycan” televiziyaları ilə birgə əməkdaşlığı sayəsində bu ta-



“İnsan səsi” tamaşasından səhnə

maşalar həvəskar deyil, tam peşəkar qaydada lentə alınıb və tamaşaçılar evdə qaldıqları müddətdə teatrın və Mədəniyyət Nazirliyinin səhifəsində yayımlanan tamaşaları keyfiyyətli şəkildə izləmək imkanı əldə ediblər. Teatrın rəsmi Facebook səhifəsində yerli və dünya dramaturqlarının ölməz əsərləri əsasında hazırlanan tamaşalar yer alıb. Repertuarı tam olaraq virtual formatda izləmək imkanından əlavə, teatrla bağlı xəbərlər və aktyorların şəxsi təşəbbüsü ilə hazırlanan qısa videoçarxlar da tamaşaçılar tərəfindən maraqla qarşılanıb. M.Səlimli: “Əslində, bütün teatrlar üçün yeni olan bu təcrübə onu göstərdi ki, tamaşaçılar teatr salonlarında nümayiş olunan tamaşalar qədər onlayn tamaşalara da maraqlanırlar. Hətta teatrın facebook səhifələrində onlara bu şansı verdiyimiz üçün kifayət qədər minnətdarlıq məktubları, mesajları da alırıq”.

## BAKI BƏLƏDİYYƏ TEATRI

Teatrın kollektivinin üzvləri bu ağır sınaq günlərində ölkənin ictimai həyatında yaxından iştirak edərək hər biri öz evindən videoya çəkməklə gigiyena qaydalarına aid Fleşmob tərtib etmişdilər.Truppa üzvləri həm tamaşaların videoyazılarının yayımında, həm də bədii qiraət tərzində də tamaşaçılarla virtual görüşüblər.Teatrın yaradıcısı Amaliya Pənahovanın 75 illik yubileyi kollektiv tərəfindən onlayn formatda qeyd edilib.Bakı Bələdiyyə Teatrının kollektivi karantin rejimində iyunun 15-də teatrın yaradıcısı Amalya Pənahovanın 75 illik yubileyini onlayn formatda qeyd edib. Repertuarında hərbi-vətənpərvərlik mövzulu tamaşalar üstünlük təşkil etdiyinə, cəbhə bölgələrinə davamlı qastrol səfərlərinə görə “döyüşən teatr” adını qazanmış sənət ocağının öz yaradıcısının xatirəsinə ən yaxşı töhfə əlbəttə ki, yaradıcı prosesin dinamikliyini qoruyub-saxlamaqdır. Truppa yeni mövsümdə tamaşaçılarına 1941-1945 Böyük Vətən Müharibəsində faşizm üzərində qələbənin 75 illiyi münasibətilə R. Rzanın “Vəfa” və A.Qurbaninin “Həzi Aslanov” əsərlərinin tamaşasını təqdim etməyə hazırlaşır.





## C.CABBARLI ADINA İRƏVAN DÖVLƏT DRAM TEATRI

Mədəniyyət Nazirliyi tərəfindən gerçəkləşdirilən “Evdə qal, tamaşa izlə” kreativ layihə çərçivəsində C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı sosial şəbəkələr vasitəsilə tamaşaçılarla ünsiyyət qurub, yaradıcılıq müzakirələri, toplantılar keçirib. Aprel ayında Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının Facebook səhifəsində canlı yayım vasitəsilə həftə içi hər gün saat 12:00 və 19:00-da (təkrar) yayımlanan tamaşalar teatrsevərlər tərəfindən maraqla qarşılanıb. Ay ərzində nümayiş olunan 30 tamaşaya 14 min 628 tamaşaçı baxmışdır.



“Akvariuma xüsusi sifariş” tamaşasından səhnə

May, iyun ayları boyunca Facebook səhifəsində paylaşılan link vasitəsilə teatrın YouTube kanalında həftə içi hər gün saat 12:00 (may ayı) və 19:00-da (iyun ayı) virtual repertuarla izləyicilərə tamaşalar təqdim etməyə başlayıb. Qərbi Azərbaycandan olan soydaşlarımızın teatrında hazırda üç tamaşanın məşqləri onlayn davam edir.

Aprelin 18-dən virtual olaraq üç tamaşanın onlayn məşqləri “Zoom” proqramı vasitəsilə davam edir. Bunlar Əbdürrəhim bəy Haqverdiyevin “Kimdir müqəssir” (quruluşçu rejissor teatrın baş rejissoru Əməkdar artist Sərvər Əliyev), Qoşqar Narqabilin “Rəis və beş dul qadın” (quruluşçu rejissor Nicat Mirzəzadə) və U.Şekspirin “Kral Lir” (quruluşçu rejissor Elvin Mirzəyev) əsərləridir. Məşqlər həftədə 6 gün, masa arxası onlayn aparılır.

Teatrın direktoru İftixar Piriyev rəhbərlik etdiyi kollektivin timsalında bütün xalqımızı pandemiya bəlasından sonrakı yeni dövrün ilk başlanğıcından etibarən, səmərəli və çevik dinamika ilə həyatımızın davamı üçün təfəkkürümüzü yeniləməyə səsləyir.

## ŞUŞA DÖVLƏT MUSİQİLİ DRAM TEATRI

Şuşalıların tamaşaçılarla hələlik son görüşü martın əvvəli “Müsyö Jordan və Dərviş Məstəli şah” tamaşasında baş tutub. Kollektiv Xanımana Əlibəylinin 100 illiyi ilə bağlı hazırladığı “Dovşanın ad günü” tamaşasını Novruz bayramında oynayacaqdı. Hazırlanma prosesində olan dörd tamaşa karantin rejiminin yumşaldıldığı zaman kəsiyində səhnə məşqlərinə köklənsə də, sonradan yenidən sərtləşmə çərçivələrinə qapanmalı olub. Və təbii ki, 10 nəfərdən artıq insanın bir yerə toplaşması qadağası da repertuar tərtibatına təsir edib. Bu qadağa ləğv edilən kimi kollektiv Əbdürrəhimbəy Haqverdiyevin vaxtilə repertuarda olmuş “Dağılan tifaq” ta-



“Evdə qal evdə yarat” layihəsi çərçivəsində çalışarkən

maşasının bərpasını nəzərdə tutub. Digər teatrlar kimi Şuşa teatrı da televiziyanın fondunda olan tamaşalarının videoyazılarını son aylar ərzində tamaşaçılarına təqdim edib.

## SUMQAYIT DÖVLƏT DRAM TEATRI

Gənclər şəhəri Sumqayıtın Dövlət Dram Teatrının özünəxas ənənələri var. Karantin səbəbindən internet teatrı anlayışı çərçivəsində fəaliyyətini müasir texnoloji formaya uyğunlaşmağa, bədii-estetik zövqü qiyabi şəkildə zənginləşdirməyə çalışan sənət ocağı olaraq “Evdə qal, tamaşa izlə” layihəsini irəli sürən ilk kollektiv kimi tarixə düşdü. “Evdə qal, yaradıcılıqdan qalma” devizi bu günlərdə teatrın hər bir əməkdaşının fəaliyyət prinsipinə çevrildi. Tamaşaya qoyulan əsərlərin təhlili, onların gündəmlə səsləşməsi ilə bağlı rəy və təkliflər, PR kampaniyası çərçivəsində kollektivin dəvət aldığı televiziya proqramlarından fraqmentlər, truppa üzvlərinin uğurları ilə bağlı videomateriallar, digər sənət ocaqları ilə yaradıcılıq mübadilələri, müzakirə və diskussiyalar Sumqayıt Dövlət Dram Teatrının YouTube kanalı, Facebook və İnstagram səhifələri üzərindən operativ şəkildə yayımlandı. Xüsusi karantin günlərində müasir texnologiyanın imkanlarından daha bol bəhrələnən Sumqayıtın teatr xadimləri virtual repertuarla tamaşaçılarına “Teatra gəlmə, biz tamaşanı evinə gətirək” online paketini təqdim etdilər.

Teatrın direktoru, Əməkdar artist Mübariz Həmidov mütəmadi videokonfranslar keçirərək kollektivə vətəndaş və sənət xadimi vəzifələrini bir an belə unutmamaq, əməkdaşların fəaliyyətinin ev şəraitinə uyğun tənzimlənməsi, virtual repertuar planının tərtibi, maarifləndirmə işinin gücləndirilməsi, yaşı 65-dən yuxarı işçilərlə vaxtaşırı əlaqə saxlanılması kimi mühüm məsələləri diqqətə çatdırıb. İlk aylarda həftədə 3 dəfə virtual tamaşa saatları ilə internet səhnəsinə çıxan teatrın videorepertuarı daha sonra həftədə 7 tamaşanın təqdimatı ilə tərtib olundu. Bu repertuara daha dünyagörmüş teatralların yaddaş xronikasında möhkəm yer tutmuş səhnə əsərləri daxil edilib.

Teatr 26 iyun – Azərbaycanın Silahlı Qüvvələr günü ərəfəsində bu qəbildən tamaşalarını virtual səhnəyə çıxardı. Bunlara II Cahan Savaşından bəhs edən 1971-ci ildə Arif Ağayevin quruluş verdiyi “Tribunal” və bir vaxtlar Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru işləmiş Yusif Əkbərovun 1984-cü ildə qoyduğu “Saşka” tamaşaları ilə yanaşı, Qarabağ savaşının faciəsini əks etdirən Ağalar İdrisoğlunun “Yanmış evin nağılı”, Namis Şirməmmədovun “Vicdan hökmü”, “Dağlarda tufan”, teatrın baş rejissoru Firudin Məhərrəmovun “Burdan min atlı keçdi” kimi tamaşaları aiddir.

Repertuar siyasətində fasilə yaranmamasından ötrü təsdiq olunmuş plan üzrə yeni əsərlərin online məşqlərinin keçirilməsi məqsədəuyğun sayılıb. Əməkdar artist Namis Şirməmmədov dahi Üzeyir Hacıbəylinin “O olmasın, bu olsun” komediyasına quruluş verib. Fuad Kazımov Ə.Haqverdiyevin “Kimdir müqəssir” faciəsinin məşqlərini aparır. Sumqayıt Dövlət Dram Teatrında özünün diplom tamaşası ilə diqqət çəkmiş gənc, istedadlı rejissor Ümid Abbas “Pələng” əsərini monotamaşa kimi işləyib.

Xüsusi dəvət olunmuş rejissor Gülnar Hacıyevanın xalq nağılı “Göyçək Fatma” pyesi üzərində orijinal yozumu da balacaların zövqünü oxşayacaq.




Teatrın baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov yaradıcılıq prosesinə nəzarət etməklə bərabər daha 3 maraqlı tamaşası ilə tamaşaçıların görüşünə gələcək: “Uşaqlıq” monotamaşasının və “Tubinot” kamera pyesinin məşqləri onlayn gedir, “Xortdanın cəhənnəm məktubları”nın məşqləri isə canlı fəaliyyətin bərpa olunacağına ümid edilən sentyabra qədər təxirə salınıb. Ümumilikdə Sumqayıt Dövlət Dram Teatrı tamaşaçılarını 6 tamaşanın premyerası ilə sevindirmək niyyətindədir.

## DÖVLƏT AKADEMİK MUSİQİLİ TEATRI

Son ayların əhvalına köklənərək teatrın bütün yaradıcı heyəti, eyni zamanda, könüllülər dəstəsi “Evdə qal” kampaniyasına qoşularaq müxtəlif video çarxlar vasitəsi ilə çağırışlar ediblər. Teatrın simfonik orkestrinin solisti, beynəlxalq müsabiqələr laureatı, istedadlı pianoçu Firuzə Nəcəfli bu kampaniya çərçivəsində dünyanın müxtəlif ölkələrinin sənət adamları ilə beynəlxalq layihəyə imza atıb. Truppa üzvləri mütəmadi olaraq ev şəraitində etdikləri məşqlərdən görüntülər paylaşır, bəzi tamaşaların isə onlayn kollektiv məşqləri də aparılır. Musiqili teatrın tamaşalarının video yazıları sənət ocağının YouTube hesabında və rəsmi saytında öncədən yerləşdirilmiş olsa da, karantinin ilk günlərindən başlayaraq, əlavə virtual repertuar tərtiblənib və tamaşalar həftənin üç günü – cümə, şənbə və bazar günləri teatrın Facebook səhifəsində nümayiş etdirilir. Sənət ocağının demək olar ki, bütün yaradıcı heyəti Mədəniyyət Nazirliyi və Mədəniyyət Kanalının

birlikdə təşkil etdiyi XX əsr Azərbaycan operetta inciləri layihəsində, Üzeyir Hacıbəyli, eləcə də, Q.Qarayev və F.Əmirov teleheftələrinə qatılıblar. Virtual repertuarı daha mükəmməl səviyyəyə çatdırmaq üçün teatrın daxilində mini-studiya yaradılıb. Studiyanın ilk "Qrim otağı" layihəsi artıq tamaşaçılara təqdim olunmuş və böyük maraqla qarşılanmışdır. Aktyorlarla tamaşaçılar arasında virtual görüşləri daha canlı və maraqlı etmək məqsədi ilə "Sual ver, cavab al" layihəsi həyata keçirilib.

Bütün bunlar haqqında məlumat verən teatrın direktoru Əliqismət Lalayev yaradıcılıq məsələləri ilə bahəm, kollektiv üzvlərinə sosial dayaq məqamlarının da diqqət mərkəzində olduğunu bildirdi.


"Kişi, qadın, məşuq və...pəncərə" tamaşasından


"Paris NotrDama ithaf" tamaşasından

## SƏMƏD VURĞUN ADINA AKADEMİK RUS DRAM TEATRI

Bu teatrın zamanla ayaqlaşmaq bacarığı bəlli faktdır. Tamamilə fərqli mövcud durumda da teatr mart ayının ortalarından etibarən rəvan virtual repertuarla tamaşaçılarının görüşünə gəlir. Həm də bu görüşlər teatrın canlı fəaliyyəti zamanı müəyyənləşmiş günlərdə və saatlarda baş tutur. Bundan ötrü teatrın iki virtual səhnəsi var - rəsmi Facebook səhifəsi və rəsmi internet saytı virtual teatrallara teatrın fəaliyyəti haqqında videohesabatlar, yerli və dəvət edilmiş rejissorların son və daha öncəki dövrdə oynanılmış uşaqlar və böyüklər üçün tamaşalarını təqdim edir. Teatr yeni tamaşaların hazırlanmasını da arxa plana atmayıb. Baş rejissor Aleksandr Şarovski Maqsud İbrahimbəyovun "Qara geyimli qadın gəlmişdi" əsərini hazırlayır. Həmçinin bədii rəhbəri İranə Tağızadə, quruluşçu rejissoru Bella Safina (Klimaşeva) olan "Seçim et" tamaşasının da onlayn məşqləri aparılır. Premyerası martın 15-nə nəzərdə tutulmuş "Stalin" tamaşası məlum səbəbdən təxirə salınıb.

Teatr bu ilin dekabrında 100 illik yubileyini keçirməyə hazırlaşır. Yubiley hazırlıqları hələ ki onlayn şəraitdə gedir. Yubiley münasibətilə teatrın Rusiyanın bir neçə şəhərinə qastrolu və Moskva və Sankt-Peterburq teatrlarının Bakıya səfəri nəzərdə tutulub. Kollektiv o əhvala köklənib ki, teatr canlı orqanizmdir və onun fəaliyyətinin dayanmasına imkan vermək olmaz.

## NƏCƏF BƏY VƏZİROV ADINA LƏNKƏRAN DÖVLƏT DRAM TEATRI

Respublikamızın digər konsert-tamaşa müəssisələri kimi Lənkəran Dövlət Dram Teatrı da öz fəaliyyətini mövcud karantin şəraitinin tələblərinə uyğun qurmuşdur. Teatrin direktoru Tofiq Heydərov jurnalımıza bildirdi ki, teatr yaradıcılıq fəaliyyətinin virtual qaydada davamı ilə mart, aprel, may və iyun aylarında özünün YouTube və Facebook səhifələrindən tamaşalarını qabaqcadan tərtib olunmuş repertuar planı əsasında vaxtaşırı təqdim etmişdir. T.Heydərov: "Biz həmçinin cari ilin repertuar planına daxil edilmiş fransız dramaturqu Marsel Berkye Marinyenin "Oğru" əsərinin onlayn məşqlərini aparmışıq. Növbəti mövsümdə bu səhnə əsərinin premyerasını keçirəcəyik. Bundan əlavə repertuar planımızda Xanımana Əlibəylinin "Ləpələrin nağılı", Vilyam Şekspirin "Şıltaq qızın yumşalması", Əli Əmirlinin "Hasarın o üzü" və digər əsərlər yer almışdır".

Tofiq Heydərov kollektivdə yaradıcılıq prosesinin gücləndirilməsi istiqamətində müəyyən planlar üzərində düşündüklərini qeyd edərək, bu gün əsas səylərin koronavirus pandemiyası ilə mübarizəyə yönəldilməli olduğunu vurğuladı. Çünki bu bəladan xilas olmadan normal iş fəaliyyətinə qayıtmaq mümkünsüzdür.


"Vəfalı Səriyyə" tamaşasından


“Senemar” tamaşasından







## BAKI UŞAQ VƏ GƏNCLƏR TEATRI

Teatrın rəhbəri İntiqam Soltan jurnalımıza açıqlamasında hər mövzuya qeyri-standart yanaşma tərzinə sadiq qaldı: “Mövcud durumda, yəni pandemiya dövründə biz nə qədər məhsuldar işlədiyimizi iddia etsək də “karantin” və “teatr” bir-birinə barışmaz müxalifətdə duran anlayışlardır.

Mövcud durumda məcburi şəkildə evdən işləməyə məcbur olan teatrımız nə az, nə çox - 100-ə qədər müxtəlif videomateriallar (kiçik nağıllar, kompozisiyalar, viktorina tipli videolar, hətta müxtəlif ölkələrin aktyorları ilə birgə iş və s.) hazırlayıb teatrın YouTube kanalına yerləşdirmişdir. Bundan əlavə də hər iki-üç gündən bir teatrın tamaşalarını bu kanal vasitəsilə yayımlayırıq.Və bu tamaşaların da hər üçüncüsü gənclərə yönəlmiş, əsasən sağlam həyat tərzini təbliğ, zərərli vərdişləri tənqid ruhlu tamaşalar olub”.

İntiqam Soltan adi, canlı fəaliyyətini çətinliklə quran binasız, şəraitsiz (səhnə geyimləri aktyorların evlərində saxlanılır) teatrın onlayn formata təbii ki, hazır olmadığını, son ayların virtual dayanıqlığını isə kollektivin gənc və dəməli texniki tərəqqiyə açıq olması, ən əsası isə sənətə sadiqliyi sayəsində nail olduqlarını vurğuladı.

Teatrın yaradıcısı və rəhbəri bu bədbin vaxtlarda yeni teatr layihəsi ilə çıxış etməyə hazırlaşdığını da dedi. Sağlıq olsun, hər şey öz axarına düşəndə Bakı Uşaq və Gənclər Teatrı Monotamaşalar festivalını dirçəldən sənət ocağı kimi özünü təsdiqləmək niyyətindədir. İ.Soltan truppanın hər bir üzvünə ev şəraitində mono-tamaşa hazırlamağı tapşırıb. Karantin rejimi bitən kimi tamaşalara daxili baxış keçiriləcək. Artıq digər teatrlara da rəsmi müraciət göndərilib. Festivalın baş tutması üçün zəruri şərtlər təminatını tapdığı təqdirdə festivalın hər gününün bir şəhər və ya rayonda gerçəkləşməsi nəzərdə tutulub.

***Görəsən Şekspir peşman olmayıb ki?***

***“Dünya bir səhnədir, insanlar isə aktyor”. Dahi ingilis dramaturqun bu sözü o qədər çox xatırlanıb ki, iqtibas olduğu az qala unudulub. Çünki dünya - insan münasibətlərinin ən dəqiq formuludur. Hər birimizin bir və ya bir neçə missiyamız olduğuna işarədir.Təəssüf ki, bəziləri bu formulun nədən qaynaqlandığının fərqinə varmırlar, hərfi mənada qavrayırlar. Belə məqamlarda Uilyam Şekspirin ruhu yaqin, narahatlıq keçirir. Və bəlkə də peşman olur o sözü deməyinə. Nədənsə son vaxtlar bu fikir tez-tez baş qaldırır.***
***Nə isə... Teatr sənətimizə arzum, canlı fəaliyyət üçün elə darıxsınlar ki, pandemiyanın törətdiyi karantin rejiminin virtual və hətta onlayn ola biləcək dönəmi bitəndən sonra iş prosesində kökləndikləri yeganə dalğa yaradıcılıq axtarışları olsun!*** ❖

**Samirə Behbudqızı**